
Aslan Aslanov Heydər Əliyevlə. 2002-ci il








Neft Daşları. 1947-ci il

# AZƏRTAC: 101

## Azərbaycanın ilk milli xəbər agentliyi ya



**Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın 101 yaşı tamam olur. Ötən bir əsrdə Azərbaycan Xalq Cümhuriyyətini Azərbaycan SSR, onu isə müstəqil Azərbaycan Respublikası əvəzlədi. Əgər agentliyin bu illər ərzindəki bütün xəbərlərini, fotolarını bir yerə toplamaq olsaydı, ölkəmizin və xalqımızın həyatının bitkin mənzərəsi yaranardı.**

### Tarixə qısa ekskurs

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları milli xəbər agentliyi yaradılmasının zəruriliyini yaxşı anlayırdılar. Hökumət bu məsələni 1919-cu il martın 3-də müzakirəyə çıxardı və müvafiq qərar qəbul edildi. Lakin müəyyən səbəblərə görə həmin qərar təxminən bir ilə yaxın kağız üzərində qaldı. Nəhayət, 1920-ci il martın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Teleqraf Agentliyi fəaliyyətə başladı. Bundan iki ay keçmədi ki, Azərbaycan bolşevik işğalına məruz qaldı və Cümhuriyyət hökuməti süquta uğradı. Milli Teleqraf Acanslığı cəmi 58 gün fəaliyyət göstərsə də, adını tarixə yazdıra bildi.

SSRİ dövründə Azərbaycanın milli informasiya agentliyinin adı yeddi dəfə dəyişdirildi və bu, onun keçdiyi yolun mürəkkəbliyindən xəbər verir. Bolşevik işğalından sonra Azərbaycanda informasiya işi ROSTA-nın (Rusiya Teleqraf Agentliyinin) Qafqaz diyar şöbəsinin Azərbaycan bölməsinə - AzKavROSTA-ya həvalə edildi. 1921-ci ildə AzərTAQ adlandırılan bu bölmə 1922-1936-cı illərdə üç Zaqafqaziya respublikasının agentlikləri birliyinin tərkibinə daxil oldu və ona ZaqTAQ adı verildi. Sonradan AZƏRTAC yenidən müstəqil informasiya orqanı kimi fəaliyyət göstərdi. Adlar dəyişsə də, mahiyyət dəyişmirdi. Azərbaycan Teleqraf Agentliyi, əslində, SİTA-nın filialına çevrilmişdi. Bununla belə, dövrün salnaməsini yazmaqda davam edirdi. Agentliyin arxivindəki fotolar respublikamızın sovet dövrdəki həyatı barədə müəyyən təsəvvür yaradır. Həmin fotoşəkillərin bir neçəsinə nəzər salmaq yerinə düşər.

1969-cu ildə Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra Azərbaycanın və AZƏRTAC-ın həyatında yeni dövr başladı. Müasir texniki avadanlıqla təchiz olunan, binası əsaslı təmir edilən, agentlik çox keçmədən SSRİ miqyasında öncül mövqelərə çıxdı, SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəzə çevrildi. Heydər Əliyevin şəxsi nüfuzu hesabına müttəfiq respublikaların informasiya agentlikləri arasında Ukrinformdan sonra məhz AZƏRTAC "Olivetti" markalı




kompüterlərlə təchiz edildi.

1980-ci illərin sonu - 1990-cı illərin əvvəlində Azərbaycan çətin sınaqlarla üzləşdi. Qanlı Yanvarda respublikada heç bir qəzet çıxmadığı, hətta televiziya verilişlərinin dayandırıldığı günlərdə də AZƏRTAC-ın jurnalistləri iş başında idilər. Onlar ölkədə baş verən hadisələr barədə xəbərləri bülletenlər şəklində Bakıda binaların divarlarına yapışdırırdılar. Fotomüxbirlərimiz isə küçə və meydanları, xəstəxanaları gəzərək imperiya ordusunun qanlı cinayətlərini lentə alırdılar. Sonradan bu fotolar bir sıra xarici KİV-lərdə dərc olundu, 20 Yanvar şəhidlərinin dəfn mərasimində çəkilmiş "Milyon qəlbin göz yaşları" adlı fotoşəkil bütün dünyada məşhurlaşdı.

1992-ci il dekabrın 18-də tarixi adı bərpa olunan agentlik 2015-ci ildən Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC adlanır.

### AZƏRTAC dünya informasiya məkanında

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışının ilk illərində AZƏRTAC-ın qarşısında beynəlxalq informasiya məkanına çıxmaq vəzifəsi qoydu. Ümummilli liderin 2000-ci ildə AZƏRTAC-ın 80 illik yubileyi münasibətilə agentliyə ünvanladığı təbrik məktubunda deyilirdi: "AZƏRTAC-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır".

İdarə Heyətinin sədri Aslan Aslanov xatırlayır: "Bir dəfə Heydər Əliyev mənə dedi ki, AZƏRTAC beynəlxalq informasiya platformalarına çıxmalı, OANA-nın üzvü olmalıdır. O dövrdə bizdə hətta media sahəsində də belə bir beynəlxalq təşkilatın mövcudluğundan xəbərdar olanlar az idi, Heydər Əliyev isə nəinki bunu bilir, həm də bu təşkilatda üzvlüyün zəruriliyini və faydasını öncədən görürdü. 2004-cü ildə biz OANA-ya daxil olduq, 12 ildən sonra isə bu təşkilata rəhbərlik etdik".

1990-cı illərin əvvəlində Azərbaycanın informasiya baxımından xaricə çıxmaq imkanı yox dərəcəsində idi. İndi isə Dünya Xəbər Agentlikləri Şurasının səsvermə hüququna malik 13 üzvündən biri AZƏRTAC-dır. 2016-cı ildən 2019-cu ilədək AZƏRTAC Dün-

# ilin salnaməsi



## aranışının növbəti ildönümünü qeyd edir

ya Xəbər Agentlikləri Konqresinə və OANA-ya sədrlik edib. Dünya tarixində ilk dəfə idi ki, bir agentlik eyni vaxtda dünyanın ən nüfuzlu iki informasiya təşkilatının rəhbəri seçilmişdi.

AZƏRTAC son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası), TELAM (Argentina), SPA (Səudiyyə Ərəbistanı), Ukrinform (Ukrayna) və digər nüfuzlu xəbər yayımçıları var. AZƏRTAC, həmçinin Dünya Xəbər Agentlikləri Konqresi Şurası və Avropa Xəbər Agentlikləri Alyansı (EANA) çərçivəsində Associated Press, Reuters, Press Association, DPA agentlikləri ilə əməkdaşlıq edir.

Agentliyin həyatında ən əlamətdar hadisələrdən biri 2016-cı ildə baş verdi. Prezident İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakı eyni vaxtda iki mötəbər beynəlxalq təşkilatın əsas forumlarına - Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına yüksək səviyyədə ev sahibliyi etdi. Prezident İlham Əliyev forumların açılışında geniş nitq söylədi, daha sonra forum iştirakçılarının bir qrupunu qəbul etdi. Bununla da Azərbaycanın və AZƏRTAC-ın adı dünya mətbuat tarixinə həmişəlik yazıldı.

AZƏRTAC-ın üzv olduğu beynəlxalq və regional media qurumlarının, tərəfdaşlıq etdiyi milli informasiya agentliklərinin saytlarında hər il Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi- mədəni və digər sahələrdə qazandığı uğurlara dair təxminən 15 min xəbəri, videosu və fotosu yayılır.

Hazırda AZƏRTAC ən müasir informasiya texnologiyaları ilə təchiz edilib. Agentliyin rəhbərliyinin və nümayəndələrinin yüksək səviyyəli media forumlarında iştirakına şərait yaradılıb. Bu da öz növbəsində beynəlxalq və regional media qurumlarında fəal mövqe tutmağı təmin etməklə yanaşı, agentliyin nüfuzuna müsbət təsir göstərir. Bir neçə məqamı xatırlatmaq yerinə düşər:

London, 17 may 2018-ci il, Press Association agentliyinin 150 illik yubiley mərasimi. Uels şahzadəsi Carlz AZƏRTAC da daxil olmaqla bir qrup media rəhbərləri ilə görüşür.

Hanoy, 19 aprel 2019-cu il, Vyetnamın Baş naziri Nguyen Xuan Phuk AZƏRTAC-ın sədrlik etdiyi OANA icraiyyə komitəsi iclasının bir qrup iştirakçısını qəbul edir.

Seul, 7 noyabr 2019-cu il, Koreya Respublikasının Prezidenti Mun Cein OANA-nın XVII Baş Assambleyasında iştirak edən agentliklərin rəhbərləri ilə görüşür. Nümayəndə heyətinə OANA-nın Prezidenti Aslan Aslanov rəhbərlik edir.

### AZƏRTAC Vətən müharibəsi günlərində

2020-ci il Azərbaycan tarixində xüsusi yer tutur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə aparılan 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız erməni işğalından azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Qələbə xəbərinin ilk müjdəçilərindən biri AZƏRTAC oldu.

Müharibədə söz də bir silah, jurnalist də bir əsgərdir. Fəaliyyətini bu prinsip əsasında quran AZƏRTAC-ın kollektivi ikinci Qarabağ müharibəsi başlayan andan bütün yaradıcı və texniki potensialını səfərbər etdi. Sutkanın 24 saatında xüsusilə gücləndirilmiş iş rejimində çalışaraq döyüş əməliyyatlarının gedişini anbaan işıqlandırdı, münaqişə və müharibə barədə həqiqətləri dünyanın hər yerinə yaymağa nail oldu. Eyni zamanda, informasiya savaşına qoşularaq, düşmən tərəfin uydurduğu yalanlarla, feyk-xəbərlərlə mübarizə işinə öz töhfəsini verdi. Həmin günlərdə qərargahı xatırladan agentliyin saytında "Cəbhə xəbərləri", "Dünya erməni faşizmini görsün", "İşğaldan azad edilmiş şəhər və kəndlərimiz" adlı bannerlər yaradıldı və bu mövzudakı bütün materiallar müvafiq bölmədə cəmləşdirildi.

Cəbhə bölgəsinə ezam olunmuş çəkiliş qruplarımız erməni təxribatlarını atəş altında lentə alırdılar. Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə xain hücumları, yaşayış məntəqələrini raket atəşinə tutması barədə hər gün yüzlərlə foto və videoxəbər, reportaj və informasiya hazırlanır və agentliyin saytında yeddi xarici dildə yayımlanırdı. Əlliyə yaxın ölkənin tərəfdaş informasiya agentlikləri və digər aparıcı KİV-lər müharibənin gedi-



şini işıqlandırarkən etibarlı və düzgün xəbər qaynağı kimi tanıdıqları AZƏRTAC-ın məlumatlarına istinad edirdilər.

Eyni zamanda, agentliyin xarici ölkələrdə fəaliyyət göstərən xüsusi müxbirləri müharibə dövründə yerli mətbuatda çoxsaylı materiallarla çıxış etdilər, televiziya və radiolara müsahibələr verdilər.

### AZƏRTAC yeni əsrin salnaməsini yazmaqda davam edir

Vətən müharibəsindən qalib çıxan Azərbaycanın həyatında yeni dövr başlayıb. İşğaldan azad edilmiş Qarabağda düşmənin dağıdıb viran qoyduğu şəhər və kəndlərin bərpasına, yollar çəkilməsinə, aeroport tikilməsinə start verilib. AZƏRTAC-ın müxbirləri mütəmadi olaraq Qarabağ bölgəsinə ezam olunur, bərpa və quruculuq işlərini geniş işıqlandırırlar. Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər, Ağdam və digər ərazilərdən reportajlar, foto və videoxəbərlər hazırlanaraq yayılır. Onların bir çoxu tərəfdaş KİV-lərdə də yer alır.

Bu gün AZƏRTAC səkkiz dildə - Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan dillərində xəbərlər, eləcə də regionda ilk dəfə olaraq beş dildə videoxəbərlər buraxır. Bu uğurlar dinamik inkişaf edən Azərbaycana artan maraqdan, ölkəmizin dünyada söz və nüfuz sahibinə çevrilməsindən qaynaqlanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan günbəgün müasirləşir, modernləşir. Qarabağ Zəfəri ölkəmizə marağı daha da artırır. Azərbaycan Prezidentinin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi böyük mətbuat konfransı bunun növbəti parlaq təzahürü oldu. Mətbuat konfransına dünyanın 35-dən çox media qurumunun, o cümlədən Türkiyənin "TRT Haber" telekanalı, Anadolu Agentliyi, Rusiyanın TASS və RİA Novosti informasiya agentlikləri, Böyük Britaniyanın "Teleqraf", "Independent" qəzetləri, "Reuters" İnformasiya Agentliyi, Yaponiyanın "JİJİ PRESS" İnformasiya Agentliyi, İspaniyanın "La Vanguardia" qəzeti kimi informasiya nəhənglərinin jurnalistləri gəlmişdi. Prezident onların 50-yə yaxın sualını cavablandırdı. Təxminən dörd saat yarım davam edən bu mətbuat konfransı bütünlüklə yazılı mətnə çevrilərək elə həmin gün AZƏRTAC-ın saytında yerləşdirildi və ölkə KİV-lərinə ötürüldü.

Hazırda AZƏRTAC-ın xarici ölkələrdə 21 müxbir məntəqəsi fəaliyyət göstərir. Prezidentin Sərəncamına əsasən agentlik üçün inşa olunan yeni ofis binasının tikintisi başa çatdırılıb və yaxın vaxtlarda istifadəyə veriləcək. Göstərilən bu diqqət və qayğı informasiyanın keyfiyyətini yüksəltməyə, agentliyin rəqabətqabiliyyətliliyini təmin etməyə zəmin yaradır.

AZƏRTAC ötən 101 ildə çox dəyişib, yeni texnologiyalar işin mühüm hissəsinə çevrilib. Lakin dəyişməyən onun dürüstlüyü və obyektivliyidir. Agentliyin media kimi imicinin yüksək olmasını şərtləndirən məhz bu amildir.

Obyektiv və doğru xəbərin ünvanı olan AZƏRTAC yeni əsrin salnaməsini yazmaqda davam edir.









